UOT 75
https://doi.org/10.59849/2311-8482.2025.2.215

NİGAR PRİMOVA *

# AZƏRBAYCANDA RADİO TEATRIN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

*Məqalədə Azərbaycanda radio teatrın inkişaf xüsusiyyətləri araşdırılır. Radio teatrın yaranması, formalaşması və inkişaf mərhələləri təhlil edilir. Ölkədə ilk radio tamaşalarının meydana gəlməsi, onların janr müxtəlifliyi və ictimai-mədəni əhəmiyyəti vurğulanır. Sovet dövründən etibarən radio teatrın dövlət dəstəyi ilə genişlənməsi və müasir texnologiyaların təsiri ilə yeni formatların ortaya çıxması müzakirə edilir. Eyni zamanda, radio teatrın milli mədəniyyətin və ədəbi irsin qorunmasında rolu qeyd olunur. Müasir dövrdə bu sahənin inkişaf perspektivləri və qarşılaşdığı çətinliklər haqqında da fikir yürüdülür.*

***Açar sözlər:*** *radio, teatr, dramaturgiya, mədəniyyət, inkişaf*

## Giriş

Radio teatrı XX əsrin ən mühüm kütləvi informasiya və incəsənət vasitələrindən biri kimi formalaşmışdır. O, teatrın dramatik gücünü və radionun geniş yayım imkanlarını birləşdirərək dinləyicilərə səhnə tamaşasının akustik versiyasını təqdim edir. Azərbaycanda radio teatrı milli mədəniyyətin mühüm bir hissəsinə çevrilmiş və bu sahədə bir sıra inkişaf mərhələləri keçmişdir.

Azərbaycanda radio teatrı XX əsrin 30-cu illərindən etibarən inkişaf etməyə başlamışdır. İlk nümunələr əsasən klassik Azərbaycan dramaturgiyasına əsaslanırdı. Cəfər Cabbarlı, Üzeyir Hacıbəyli və Hüseyn Cavidin əsərləri radio formatında səsləndirilərək geniş auditoriyaya çatdırılmışdır.

Sovet dövründə radio teatrına xüsusi diqqət yetirilirdi. 1940-1950-ci illərdə Azərbaycan radiosunda dramatik tamaşalar müntəzəm yayımlanırdı. Bu dövrdə səsləndirilən tamaşalar əsasən ideoloji məzmun daşısa da, eyni zamanda milli dramaturgiyaya əsaslanırdı. Ədəbiyyatın və teatrın tanınmış simaları – Rza Təhmasib, Əliağa Ağayev, Barat Şəkinskaya və başqaları radio tamaşalarında iştirak edirdilər [6, s.110].

Bu dövrdə radio teatrı daha da inkişaf edərək müasir texniki imkanlardan istifadə etməyə başladı. Yeni dramaturqların əsərləri ilə yanaşı, dünya ədəbiyyatından tərcümə olunmuş əsərlər də səhnələşdirilərək radio formatına uyğunlaşdırıldı. Rauf Kazımovski, İlyas Əfəndiyev, Anar kimi yazıçıların əsərləri radio tamaşaları üçün səhnələşdirilmişdi.

## Əsas hissə

Azərbaycan radio teatrının qızıl dövrü sayılan ötən əsrin 50-ci illərində dramaturgiya radionun əsas istiqamətlərindən biri hesab olunur və bu sahəyə görkəmli sənət adamları cəlb edilirdi. Həmin dövrdə Azərbaycanda radio mədəniyyətinin inkişafı üçün bir sıra mühüm işlər görülmüşdü. Xüsusilə 60-cı illərdə radio mədəniyyəti ayrıca bir sahə kimi formalaşmışdı. Həmin illərdə Azərbaycan Teleradio Verilişləri Komitəsinə şair Teymur Əliyev rəhbərlik edirdi. Onun müavinlərindən Ənvər Əlibəyli radio, Cəlal Məmmədov isə televiziya ilə bağlı müxtəlif məsələlərin həllində iştirak edirdi.

Keçən əsrin 60-cı illərində radio sahəsi sanki ayrıca bir mədəniyyət ocağı kimi fəaliyyət göstərirdi. Dinləyicilərin dünyagörüşünün və mədəni zövqünün formalaşmasında bir çox ziyalıların böyük rolu olmuşdur. Əfrasiyab Bədəlbəyli, Mehdi Məmmədov, Mikayıl Abdullayev, Maral Rəhmanzadə və Toğrul Nərimanbəyov kimi tanınmış şəxsiyyətlər radionun inkişafına mühüm töhfələr vermişlər. Daha sonra bu dairəyə Anar, Vidadi Paşayev, Davud Nəsib, İsa İsmayılzadə, Məmməd Oruc və Eldar Baxış kimi görkəmli simalar da qoşulmuşdur [4, s.75].

Azərbaycan radioteatrında ötən əsrin 50-ci illərində montaj üsulu ilə hazırlanan tamaşalar geniş yayılmışdı. O dövrdə radionun təqdim etdiyi teatr tamaşaları böyük təsir gücünə malik idi. Bununla belə, onların səsləndirilməsi və radioteatr janrına uyğunlaşdırılması müəyyən çətinliklər yaradırdı. Məhz bu səbəbdən zamanla sırf radioteatr üçün xüsusi əsərlər yazılmağa başlanıldı. Belə əsərlərin müəllifləri arasında İlyas Əfəndiyev, Adil Babayev, Elçin, Anar və Əkrəm Əylisli kimi məşhur yazıçılar yer alırdı.

Qeyd etmək lazımdır ki, həmin dövrdə radioteatr üçün yazılan əsərlərin seçilməsi məqsədilə müxtəlif müsabiqələr təşkil edilirdi. Günümüzə qədər gəlib çatan ən dəyərli radio tamaşalar məhz bu müsabiqələrin nəticəsində ərsəyə gəlmişdir.

Azərbaycan radioteatrının tarixinə nəzər salsaq, burada uzun illər ərzində müxtəlif nəsillərə mənsub görkəmli aktyorların adlarına rast gələ bilərik. Onların arasında Əli Zeynalov, Kazım Ziya, Ələsgər Ələkbərov, Ağadadaş Qurbanov, Leyla Bədirbəyli, Hökümə Qurbanova, Məhluqə Sadıqova, Səməndər Rzayev, Lütfi Məmmədbəyov, Sadıq Hüseynov, Səyavuş Aslan, Fuad Poladov, İlham Namiq Kamal, Yaşar Nuri kimi sənətkarlar xüsusi yer tutur [1, s.15].

Radioteatr tamaşalarının quruluşçu rejissorları da həmin dövrdə fəal çalışaraq bu sənətin inkişafına mühüm töhfələr vermişlər. Onların sırasında Mehdi Məmmədov, Zəfər Nemətov, Tofiq İsmayılov, Həsən Əbluc, Səftər Turabov, Ziyafət Abbasov, Rövşən Abdullayev, Mehriban Bəşirzadə, Nazim Yüzbaşov, Leyla Qarayeva və başqalarının adını çəkmək olar. Həmçinin, radioteatr sahəsində fəaliyyət göstərən rejissorlar arasında tanınmış televiziya rejissorları da var idi ki, onlardan Ramiz Həsənoğlu və Tariyel Vəliyevi nümunə göstərmək mümkündür.

1920-1930-cu illərdə Üzeyir Hacıbəyovun yaratdığı opera və komediyalar Azərbaycan radioteatrına marağın artmasına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. 1937-ci il aprelin 30-da bəstəkarın "Koroğlu" operası ilk dəfə radioteatr vasitəsilə yayımlanmış və ölkədə böyük rezonans doğurmuşdur. Bunun ardınca, "Leyli və Məcnun", "Ər və arvad", "Arşın mal alan", "O olmasın, bu olsun" kimi əsərlər də radioteatrda səsləndirilmişdir. Bu tamaşalarda Mirzəağa Əliyev, Bülbül, Hüseynqulu Sarabski, Hüseynağa Hacıbababəyov, Ağababa Bünyadzadə, Şövkət Məmmədova, Sona Bağırova, Məmmədtağı Bağırov, Həqiqət Rzayeva, Əhməd Anatollu və Rəşid Behbudov kimi görkəmli sənətkarlar iştirak etmişlər. Milli radionun tanınmış diktorlarından Soltan Nəcəfov öz xatirələrində bildirirdi ki, Üzeyir Hacıbəyovun bir neçə operasının radioda translyasiyası onun üçün böyük zövq mənbəyi olmuşdur.

1953-cü ildən etibarən Azərbaycan radioteatrında radio tamaşaların maqnit lentinə yazılması və yeni texniki imkanlardan istifadəyə başlanması bu sahədə yeni mərhələnin yaranmasına səbəb oldu. Həmin dövrdə tanınmış sənətkarların teatr tamaşaları montaj edilərək radioda yayımlanmağa başladı. Bu tamaşalar arasında S.Vurğunun "Xanlar", Ə.Məmmədxanlının "Şərqin səhəri", İ.Əfəndiyevin "Bahar suları" və İ.Qasımovun "Xəzər üzərində şəfəq" kimi əsərlər xüsusi yer tuturdu [3, s.66].

Bu mərhələdə teatr tamaşalarının ədəbi materialları təhlil edilir, onların dramaturji quruluşu müəyyənləşdirilir və dinləyicilər üçün daha anlaşıqlı hala gətirilməsi yolları araşdırılırdı. Rejissorlar tamaşaları radioya uyğunlaşdırmaq üçün müxtəlif üsullardan istifadə edir, dinləyicilərin marağını artırmaq məqsədilə bəzi dramatik səhnələri montaj vasitəsilə təkrarlayırdılar. Onlar əsas diqqəti hadisələrin reallığını, qəhrəmanların psixoloji vəziyyətini, hiss və düşüncələrini daha dolğun şəkildə təqdim etməyə yönəldirdilər. O dövrdə radioteatra olan böyük maraq, rejissorların bu sahədə uğur qazandıqlarını göstərirdi.

Rejissorlar danışıq intonasiyasının ifadəliliyinə, uyğun musiqi müşayiətinə və bədii-emosional ovqatın düzgün ötürülməsinə xüsusi önəm verirdilər. Aktyorların ifasında danışıq üslubu teatr tamaşalarından çox fərqlənməsə də, səhnə pafosu eynilə teatr atmosferini xatırladırdı.

Radio tamaşalarda vizual təsvir olmadığı üçün hadisələrin izahı aparıcı tərəfindən qısa və yığcam şəkildə təqdim olunurdu. Bu, dinləyicilərin təəssüratlarının onların təxəyyülü əsasında formalaşmasına imkan yaradırdı.

1950-ci illərdə Azərbaycanda bir çox əsərlər radio tamaşa formatında dinləyicilərə təqdim edilmişdir. Məsələn, 1954-cü ildə Cəlil Məmmədquluzadənin "Ölülər", Cəfər Cabbarlının "1905-ci ildə" və "Almaz", 1956-cı ildə Nazim Hikmətin "Kəllə", 1957-ci ildə Məmmə Rahimin "Sayat Nova", 1958-ci ildə Nəriman Nərimanovun "Bahadır və Sona", 1959-cu ildə isə Süleyman Rəhimovun "Mehman" və Məmməd Səid Ordubadinin "Qılınc və qələm" əsərləri radio tamaşa şəklində yayımlanmışdır [2, s.110]. .

Bəhs etdiyimiz dövrdə SSRİ radio yayımı sahəsində dünyada lider mövqedə idi. Azərbaycanın ev sahibliyi etdiyi musiqi festivalları, ədəbiyyat və incəsənət ongünlükləri radioda yayımlanır və dinləyicilər tərəfindən böyük maraqla qarşılanırdı.

1960-cı ildə radio sahəsinin inkişafı üçün dövlət səviyyəsində addımlar atıldı və 29 yanvar tarixində bu sahədə verilişlərin təkmilləşdirilməsini nəzərdə tutan qərar qəbul edildi. Həmin dövrdə Azərbaycan radiosunda "radio teatr" bölməsi yaradıldı. Sovet İttifaqının istehsalı olan bir çox radio pyeslər təkcə SSRİ-də deyil, dünya radiolarında da yayımlanmağa başladı [7, s.54].

1960-cı ildən etibarən SSRİ-də və Azərbaycanda radio dramaturgiyası və radio tamaşalarına dair bir sıra kitablar, tədqiqat əsərləri və məqalələr yazıldı. Radio dramaturgiyasının inkişafı cəmiyyətin bu sahəyə olan marağını artırdı və radio teatrına artıq özünəməxsus xüsusiyyətlərə malik elm sahəsi kimi baxılmağa başlandı.

Ölkəmizdə ilk orijinal radio tamaşa – "Qardaş torpağı" 1962-ci ildə səsləndirildi. Onun müəllifi yazıçı Rauf İsmayılov idi. Bu tamaşa özünəməxsus üslubu, səs effektləri və dinləyicilər arasında yüksək rəğbət qazanan dili ilə seçilirdi. Tamaşanın rejissoru Əliheydər Ələkbərov idi [8, s.59].

Radio dramaturgiyasının sürətlə inkişaf etməsi bir çox tanınmış yazıçıları bu sahəyə yönəltmişdi. Məsələn, 1966-cı ildə Anarın "Möcüzəli gecə", 1968-ci ildə Ə.Əlibəylinin "Ədəbiyyat", 1969-cu ildə isə Ə.Xaspoladovun "Qan izləri" əsərləri yazılmışdı. Həmin il K.Kərimovun "Dvorjakın melodiyası" və "Mond restoranından qoca" pyesləri də bu sahədə yaradılan nümunələr sırasında idi.

Bu dövrdə radio pyeslərinə artan maraq Elçin, Əkrəm Əylisli, Rəsul Rza, İlyas Əfəndiyev, Bəxtiyar Vahabzadə, İslam Səfərli və Adil Babayevi də bu sahədə əsərlər qələmə almağa təşviq etmişdi.

1970-1980-ci illərdə isə sənədli radio teatr nümunələri meydana gəlməyə başladı. Bu sahədə Ələkbər Salahzadə, Tofiq Rüstəmov, Camal Yusifzadə, Əkrəm Əylisli, Vaqif Musa və Novruz Cəfərov kimi yazıçılar müxtəlif sənədli radio pyeslər yazmışdılar.

XX əsrin 70-ci illərində sovet radio dramaturgiyası öz yüksəliş mərhələsini yaşayırdı və bu, fenomenal bir hadisə kimi dəyərləndirilirdi. Bu baxımdan, radioteatrın ədəbi əsasını təşkil edən radio dramaturgiyanın tipoloji xüsusiyyətləri müasir ədəbiyyatşünaslıq üçün mühüm elmi mövzuya çevrilmişdi. Bunun əsas səbəbi radio dramaturgiyasının məhz radiotexnologiyaların sürətli inkişafı nəticəsində formalaşması idi. Məhz bu inkişaf XX əsrin 70-ci illərində İngiltərə, Almaniya, Finlandiya, ABŞ və Yaponiyada da bu sahəyə marağın artmasına gətirib çıxarmışdı [5, s.89].

Müasir ədəbi nəzəriyyədə və tarixdə sovet radio dramaturgiyasının tipoloji xüsusiyyətləri praktiki olaraq öyrənilməmişdir. Əvvəla, belə bir mühüm hadisənin tədqiqinə sistemli yanaşmanın olmaması onunla izah olunur ki, radiodramaturgiya əvvəllər ya ümumi ədəbi kontekstdən kənarda, ya da dünya modelləşdirməsinə malik dramaturgiya sənətinin tərkib hissəsi kimi nəzərdən keçirilirdi.

Radiodramaturgiya fenomeni haqqında 20-ci əsrin ikinci yarısında dramaturgiyanın inkişaf qanunauyğunluqlarının öyrənilməsində, eləcə də 1970-ci illərdə radio sənətində və kinoda cərəyanların tədqiqinə həsr olunmuş elmi əsərlərdə daha ətraflı məlumat əldə etmək mümkündür.

Radio dramaturgiyasında ədəbiyyat və teatr arasındakı əlaqənin xüsusiyyətlərini sintetik təbiət hadisəsi kimi dərk etməyə imkan verən mühüm nəzəri mənbə tamaşa sənətinə, radio və televiziya teatrına həsr olunmuş əsərlərdir.

**Nəticə**

Azərbaycan müstəqillik qazandıqdan sonra radio teatrının inkişafında yeni mərhələ başladı. 1990-cı illərdə müəyyən çətinliklər olsa da, son dövrlərdə internet və rəqəmsal medianın yayılması radio teatrının yeni auditoriya qazanmasına imkan yaratdı. Müasir dövrdə radio tamaşaları podcast formatında yayımlanaraq daha geniş kütləyə çatdırılır.

Azərbaycan radio teatrı zəngin inkişaf tarixinə malikdir. Tarixi dövrlər boyunca müxtəlif dəyişikliklərə məruz qalan bu sənət növü bu gün də müasir texnologiyaların köməyi ilə yeni formalar qazanaraq yaşamağa davam edir. Onun gələcək inkişafı üçün innovativ yanaşmalar və müasir dinləyici tələblərinə uyğun yeni layihələrin həyata keçirilməsi vacibdir.

Azərbaycanda radio teatrın inkişaf xüsusiyyətləri araşdırıldıqda, onun milli teatr ənənələri, ədəbi irs və texnoloji yeniliklərlə sıx əlaqəli olduğu müəyyən edilir. Radio teatr, xüsusilə XX əsrin ortalarından etibarən geniş yayılaraq, dramaturgiyanın müxtəlif janrlarını dinləyiciyə çatdırmaq üçün mühüm vasitəyə çevrilmişdir.

Radio teatrın inkişafında Azərbaycan ədəbiyyatının klassik və müasir nümunələri əsas rol oynamış, eyni zamanda radio sənətinin spesifik imkanlarından istifadə edərək unikal ifadə tərzi formalaşmışdır. Bu sənət növünün inkişafı həm texniki imkanların genişlənməsi, həm də peşəkar aktyor və rejissorların bu sahəyə töhfəsi ilə bağlı olmuşdur.

Müasir dövrdə yeni media texnologiyalarının yayılması ilə radio teatr ənənəvi formatdan rəqəmsal platformalara inteqrasiya olunaraq yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu isə onun daha geniş auditoriyaya çatmasını təmin etməklə yanaşı, yaradıcılıq imkanlarını da artırır. Beləliklə, Azərbaycan radio teatrı tarixən keçdiyi inkişaf yolu və çağdaş dövrdəki perspektivləri ilə milli mədəniyyətin mühüm tərkib hissəsi olaraq qalır.

## ƏDƏBİYYAT

1. Cəfərov N.Q., Məmmədli C.Ə. İctimai teleradio: milli maraqlara xidmət modeli // "525-ci qəzet". - 2016, 15 may.
2. Dadaşov, A.Ə. Ekran dramaturgiyası / A.Ə.Dadaşov. - Bakı: Maarif, - 1999, - 224 s.
3. Əhmədov N., Ekran efir. Dil, "Azərbaycan müəllimi", 1990.
4. Əlizadə Y., Radiojurnalistikanın əsasları, BDU nəşr, 1991.
5. Əlizadə Y., Məhərrəmli Q., Azərbaycan efiri: tarix və müasirlik, 2006.
6. Xudiyev N., Televiziya, radio və ədəbi dil, Elm, 2001.
7. Məhərrəmli Q., Radio dərsləri, Elm və təhsil, 2007.
8. Məmmədov İ., Ekran, efir və dilimiz, Elm, 1989.

***AMEA Memarlıq və İncəsənət İnstitutu, dissertant***
***Bakı ş., H.Cavid pr., 115***
***E-mail: arbokilona@gmail.com***

**Nigar Primova**

## DEVELOPMENT FEATURES OF RADIO THEATRE IN AZERBAIJAN

The article examines the development features of radio theatre in Azerbaijan. The emergence, formation and stages of development of radio theatre are analyzed. The emergence of the first radio plays in the country, their genre diversity and socio-cultural significance are emphasized. The expansion of radio theatre with state support since the Soviet era and the emergence of new formats under the influence of modern technologies are discussed. At the same time, the role of radio theatre in preserving national culture and literary heritage is noted. The development prospects of this field in the modern era and the difficulties it faces are also discussed.

**Keywords:** *radio, theatre, dramaturgy, culture, development*

**Нигяр Примова**

## ОСОБЕННОСТИ РАЗВИТИЯ РАДИОТЕАТРА В АЗЕРБАЙДЖАНЕ

В статье рассматриваются особенности развития радиотеатра в Азербайджане. Анализируются возникновение, становление и этапы развития радиотеатра. Подчеркивается возникновение первых радиопьес в стране, их жанровое разнообразие и социально-культурная значимость. Обсуждается развитие радиотеатра при государственной поддержке со времен СССР и появление новых форматов под влиянием современных технологий. В то же время отмечается роль радиотеатра в сохранении национальной культуры и литературного наследия. В современную эпоху также обсуждаются перспективы развития этой отрасли и стоящие перед ней проблемы.

**Ключевые слова:** *радио, театр, драматургия, культура, развитие*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

***İlk daxilolma tarixi: 02.04.2025***
***Son daxilolma tarixi:12.05.2025***